

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 dekabr 2017-ci il | № 95 (2212) | Qiyməti 25 qəpik


# İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısı keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak edib




*Xəbər verildiyi kimi, dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı keçirilib.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə bu toplantıda iştirak edib və çıxış edərək Fələstinin üzləşdiyi problemlə əlaqədar narahatlığını bildirib.

Zirvə görüşünün iştirakçılarını salamlayan dövlətimizin başçısı vurğulayıb ki, Prezident Ərdoğanın təşəbbüsü ilə keçirilən bu Zirvə görüşü Türkiyənin İslam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürüdür.

"Amerika Birləşmiş Ştatları Prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı bizdə böyük narahatlıq yaradır. Bu qərar Fələstin-İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər. Hesab edirik ki, Amerika Birləşmiş Ştatları bu qərara yenidən baxmalıdır", - deyə Prezident İlham Əliyev Azərbaycan xalqının da daim belə məsələlərdə ədalətli mövqedən çıxış etdiyini bildirib.

"Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyulunda Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair komitənin, BMT-nin humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və Əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq."

Dövlət başçısı çıxışında qeyd edib ki, Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfə verir, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. "Azərbaycanın təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi və İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası yaradılmışdır. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. Azərbaycan islamofobiyaya qarşı fəal mübarizə aparan ölkələrin ön sırasındadır. 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilib. Bu möhtəşəm idman, dostluq, qardaşlıq bayramı bir daha bütün dünyaya göstərdi ki, İslam sülh, mərhəmət, bərabərlik dinidir."

Prezident İlham Əliyevin sözlərinə görə, əməkdaşlığı və qarşılıqlı dəstəyi gücləndirmək üçün digər bir imkan bu ay Bakıda keçiriləcək "İslam Həmrəyliyi İli"nin qeyd olunması ilə bağlı beynəlxalq konfrans olacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə bir sıra qurumlara təşəkkürünü ifadə edən dövlət başçımız deyib.

- İyirmi ildən artıqdır ki, Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla 20 faiz torpaqlarını işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpaqlarıdır. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilmişdir. Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir.

Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişdir. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq, münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

**AZƏRTAC-ın materialları əsasında**

# Silahlı Qüvvələrin rəhbər heyətinin toplantısı keçirilir

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün rəhbər heyətinin iştirakı ilə toplantı keçirilir.*

Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirləri, qərargah rəisləri və digər məsul zabitlərin iştirak etdiyi toplantıdan əvvəl şəxsi heyətin sıra baxışı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdıran Müdafiə naziri general-polkovnik Zakir Həsənov toplantının keçirilməsi ilə bağlı ümumi tapşırıqlar verib və əsas istiqamətlər üzrə vəzifələri müəyyən edib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iştirakçılardan hərbi nizamnamələr, rəhbəredici və digər normativ hüquqi sənədlər üzrə məqbullar qəbul edilib və şəxsi heyətin fiziki hazırlığının səviyyəsi yoxlanılıb.

Çöl-səhra şəraitində təşkil olunmuş təlim sahələrində hərbi texnika və atıcı silahlardan atışlar icra olunub.

## "Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycanın deyil, bütövlükdə regionun problemidir"

AZƏRTAC xəbər verir ki, bu fikri Gürcüstandakı Suxumi Dövlət Universitetinin rektoru, professor Zurab Xonelidze universitetdə tələbələr qarşısındakı çıxışı zamanı deyib.

Rektor bildirib ki, bu gün Azərbaycan və Gürcüstan eyni problemi yaşayır. Hər iki ölkə ərazilərinin 20 faizini itirib. Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Bəzi siyasətçilər bunun daxili problem olduğunu iddia edib məsələdən yayınmaq istəyirlər. Lakin Dağlıq Qarabağ münaqişəsi daxili problem deyil. Bu, bizim regionu və dünyanı narahat edən problemdir. Dünya ictimaiyyəti Azərbaycanın və Gürcüstanın problemlərinə biganə qalmamalıdır. Hər iki münaqişə sülh yolu ilə həll olunmalı, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü təmin olunmalıdır.

# Silahlı Qüvvələr üzrə komandir heyətinin nəzəri bilikləri və praktiki vərdişləri yoxlanılır



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2017-ci ilin döyüş hazırlığı planına əsasən, poliqonlarda və təlim mərkəzlərində müxtəlif ixtisaslar üzrə tabor, divizion və onlara bərabər tutulan bölmələrin ən yaxşı komandirlərinin müəyyən edilməsi məqsədilə yarışlar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Kəşfiyyat bölmələrinin divizion, eskadrilya və tabor komandirləri arasında keçirilən müsabiqədə iştirak edən şəxsi heyətin atəş, sıra və fiziki hazırlığı üzrə nəzəri bilikləri və praktiki vərdişləri yoxlanılıb, həmçinin zabitlərin döyüş zamanı tabeliklərində olan bölmələri idarəetmə bacarıqları qiymətləndirilib.



Bütün iştirakçılar yoxlanılan suallar üzrə yüksək bilik və bacarıq nümayiş etdirərək yaxşı qiymətlər alıblar.

*Gənc zabitlərimiz*

# "Ordumuz xalqımızı tezliklə arzusuna çatdıracaq"

*"Əsl zabit necə olmalıdır?" sualına düşünmədən onu demək istərdim ki, zabit - səriştəli, sağlam ruhlu və Azərbaycan torpaqlarını layiqincə qorumağı bacaran nümunəvi hərbçi olmalıdır. Nümunəvi zabit torpaqlarımızın azadlığı naminə əsgərləri arxasınca apara bilən zabitdir.*

Baş leytenant Tofiq Maqsudov da belə zabitlərimizdəndi. Onunla reaktiv artilleriya batareyasının praktiki dərs prosesində tanış oluruq. Əsli Cəbrayıl rayonunun Süleymanlı kəndindən olan həmsöhbətimiz Sumqayıt şəhərində dünyaya göz açıb. Uşaqlıq illərini sevinclə xatırlasa da, valideynlərinin çəkdiyi ifadəolunmaz çətinliklərin, əzab-əziyyətlərin onun da yaddaşına təsirsiz ötüşmədiyini bildirir. Elə qəlbindəki ifadəedilməz hisslər onu hərbçi olmağa ruhlandırıb. 2004-2007-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2007-2011-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxumaqla bu şərəfli peşənin yolçusuna çevrilib.



- Azərbaycan xalqının tarixinə nəzər saldıqda görürük ki, millətin yüksək hədəflərinə çatmaq istəyinin qarşısında hər zaman müxtəlif maneələr mövcud olub, - deyə zabit Tofiq Maqsudov söhbətə başlayır. - Ancaq bu maneələri aşaraq xalqımızın birliyini, gücünü və vətənpərvərliyini nümayiş etdirən oğullarımız da az olmayıb. Vətən torpaqlarına qarşı təhlükə yarandıqda, qəhrəman oğullarımız silaha sarılıb və millətin, xalqın güvənc yerinə çevrilib. Bu gün həmin missiyanı Azərbaycan Ordusu layiqincə üzərinə götürüb. Bunu aprel zəfəri bir daha sübut etdi. Aprel qələbəsi xalqımız üçün xoş müjdə olmaqla bərabər, ölkə vətəndaşlarında dövlətimizə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə və qüdrətli ordumuza inamı, etibarı daha da gücləndirdi. Bu, həmçinin işğaldakı digər torpaqlarımızın da azad edilməsi istiqamətində atılan mühüm bir addım oldu.

Aprel döyüşlərinin iştirakçısı olan artilleriyaçı zabit həmin əməliyyatda artilleriyanın xüsusi rol oynamasından da söz açdı: "Artilleriya müasir döyüşdə həlledici qüvvələrdən biridir. Artilleriyasız müasir döyüşü təsəvvür etmək mümkün deyil. Düşmənin nəzarət etdiyi mövqelərdə də, əldə olunan mövqelərin saxlanılmasında da artilleriyanın rolu həlledicidir. Artilleriya olmasa, nə irəli gedə bilərsən, nə də əldə etdiyin mövqeləri qoruya bilərsən".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Bakıda Beynəlxalq Hidroqrafiya Təşkilatının Texniki Dəstək Qrupu ilə görüş keçirilib



*Bakıda Müdafiə Nazirliyinin Naviqasiya və Kartoqrafiya İdarəsi ilə Beynəlxalq Hidroqrafiya Təşkilatının Texniki Dəstək Qrupunun nümayəndələri arasında "Azərbaycan Respublikasında Hidroqrafiya Xidmətinin imkanlarının dəyərləndirilməsi" mövzusunda görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkəmizin Beynəlxalq Hidroqrafiya Təşkilatına üzv olması prosesinin sürətləndirilməsi məqsədilə keçirilən tədbirdə bu istiqamətdə görülən işlər barədə müzakirələr aparılıb.

Qonaqlara naviqasiya, hidroqrafiya və hidrometeorologiya fəaliyyətlərinin yerinə yetirilməsi mövzusunda brifinqlər təqdim olunub, idarədə mövcud olan müasir texniki avadanlıqların imkanları nümayiş etdirilib, həmçinin onları maraqlandıran suallar cavablandırılıb.

Səfər çərçivəsində Beynəlxalq Hidroqrafiya Təşkilatının Texniki Dəstək Qrupunun nümayəndələri Hərbi Dəniz Qüvvələrinin komandanlığı ilə də görüşüb, mövcud naviqasiya, hidroqrafiya və hidrometeorologiya avadanlıqları ilə tanış olub, hərbi dənizçilərlə təcrübə mübadiləsi aparıblar.



# Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunur

*Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Hərbi-Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, plenar iclasdan əvvəl iştirakçılar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

İki gün davam edəcək iclasda tərəflər hərbi-texniki əməkdaşlığın cari vəziyyətini nəzərdən keçirəcək və 2018-ci il üçün əsas fəaliyyət istiqamətlərini müzakirə edəcəklər.

Tədbirin sonunda iclasın yekunlarına dair protokol imzalanacaq.

# Düşmən atəşindən hərbi qulluqçumuz şəhid olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Salahov Fizuli Süleyman oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir!

# Türkiyə XİN: Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoymalıdır

Türkiyənin Xarici İşlər Nazirliyi Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın iki ölkə arasında 2009-cu ildə İsveçrənin Sürix şəhərində imzalanmış protokollarla bağlı açıqlamasına dair bəyanat yayıb.

AZƏRTAC Türkiyə XİN-nin saytına istinadla xəbər verir ki, bəyanatda Edvard Nalbandyanın dekabrın 13-də Afinada verdiyi açıqlamasının əsassız olduğu bildirilir. Qeyd edilir ki, erməni nazirin protokolların təsdiqlənməsindəki gecikmələrin məsuliyyətinin Türkiyənin üzərinə düşdüyünə dair iddiaları həqiqəti əks etdirmir. Bəyanatda deyilir: "Protokollar İsveçrənin təşəbbüsü ilə aparılan danışıqlarda hazırlanıb və Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin normallaşdırılması məqsədi daşıyırdı. Lakin ilk olaraq Ermənistan Konstitusiya Məhkəməsi 12 yanvar 2010-cu il tarixində protokolların mətninə və ruhuna zidd və məhdudlaşdırıcı şərtlər irəli sürdü. Sonradan Ermənistan prezidenti Serj Sarkisyan 2010-cu il 22 aprel tarixində protokolların ratifikasiyasının təxirə salındığını açıqlayıb. Ermənistan diasporunun da bu protokollara qarşı çıxdığı və protokolların təsdiqlənməməsi üçün Ermənistan hökumətinə təzyiq göstərdiyi də reallıqdır. Son olaraq, S.Sarkisyan 2017-ci il 19 sentyabr tarixində BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında protokolların gecikməsinin məsuliyyətini əsassız şəkildə Türkiyənin boynuna qoyaraq, tərəqqi olmadığı üçün protokolların qüvvədən düşmüş sayacaqlarını və 2018-ci ilin baharına bu protokollar olmadan girəcəklərini açıqlayıb".

Bəyanatda bildirilir ki, Ermənistanın bu mənfi mövqeyinə baxmayaraq, Türkiyə protokolların əsas müddəalarına sadiqliyini qoruyur. Protokollar hələ də TBMM Xarici işlər komissiyasının gündəmindədir. Bu protokolların ratifikasiyası üçün Cənubi Qafqazda uyğun siyasi mühitin və sülhün bərqərar olması zəruridir. "Ölkəmizin protokol prosesində əsas məqsədi Türkiyə ilə Ermənistan arasında normallaşma prosesinin Cənubi Qafqazda əhatəli sülh və sabitliyi təmin edəcək şəkildə həyata keçirilməsi, bu çərçivədə Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində BMT Təhlükəsizlik Şurasının qərarlarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü təməlində irəliləyişin əldə olunması idi. İstənilən halda, Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoymalıdır, - deyə açıqlamada vurğulanır.

Türkiyə XİN-in açıqlamasında E.Nalbandyanın çıxışında dilə gətirdiyi "soyqırımı" iddialarının həqiqəti əks etdirmədiyi bildirilir: "Ermənistandan gözləntimiz mübahisəli tarixi mövzuları kənara qoyub, yaxın tarixin ən önəmli insanlıq cinayətlərindən biri olan Xocalı qətliamının hesabını verməsidir", - deyə bəyanatda vurğulanır.

# Azərbaycan Prezidentinin İƏT-in zirvə görüşündəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə dekabrın 13-də Qüds məsələsinə dair keçirilmiş fövqəladə Zirvə toplantısında iştirakı Türkiyə KİV-lərinin diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası Prezident İlham Əliyevin İstanbula birgünlük səfəri, yüksək qonaqpərvərliklə qarşılanması, İƏT-in zirvə görüşündəki dərin məzmunlu çıxışı barədə çeşidli məlumatlar yayıb. O cümlədən Türkiyənin aparıcı televiziya kanalları Azərbaycan dövlət başçısının səfəri, Qüds məsələsindəki ədalətli mövqeyi barədə tamaşaçıları məlumatlandırıb.

Anadolu agentliyi Prezident İlham Əliyevin çıxışının ayrı-ayrı məqamlarına toxunub. Agentlik Azərbaycanın hər zaman Fələstin xalqına dəstək göstərdiyini vurğulayan, sammit iştirakçılarını Ermənistanın riyakar xislətindən xəbərdar edən Prezident İlham Əliyevin çıxışından bu fikirləri diqqətə çatdırıb: "Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir. Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz".

TRT Haber kanalının rəsmi saytı "Azərbaycan Prezidenti Əliyev: ABŞ Qüds qərarını yenidən gözdən keçirməlidir" başlığı ilə yaydığı xəbərdə dövlətimizin başçısının çıxışından bir sıra sitatlar verib. Xəbərin "Hər zaman Fələstin xalqının yanındayıq" yarımbaşlıq hissəsindən sonra ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanımasının yaratdığı təhlükələr barədə Prezident İlham Əliyevin fikirləri təqdim olunub.

AZƏRBAYCAN ORDUSU

# Ulu Öndərin xatirəsi Murovdağın qarlı zirvəsində də yad edilib

*24 yanvar 1994-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə cəbhəyə yola salınmış hərbi hissənin əsgər və zabitləri Murovdağın qarlı zirvəsində, döyüş mövqeyində Ulu Öndərimizin xatirəsini ehtiramla yad ediblər.*



Hərbi hissənin ilk döyüşçülərindən olan Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin nümayəndəsi Abdulla Qurbani əbədiyaşar Ali Baş Komandanımızın mənalı ömür yolundan, ordu quruculuğundakı müstəsna xidmətlərindən və hərbi hissənin yaranma tarixindən ətraflı məlumat verib.

Qeyd olunub ki, bu hərbi hissə Ulu Öndərimizin təşəbbüsü ilə yaradılmış və cəbhəyə yola salınmışdır. O vaxt yolasalma mərasimində Heydər Əliyev demişdir: "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır".

Şəxsi heyət harada, hansı döyüşdə olmasına baxmayaraq Ulu Öndərin bu xeyir-duasını unutmamış və hərb tariximizə parlaq səhifələr yazmağa səy göstərmişdir.

Belə ki, Heydər Əliyevdən xeyir-dua alan Vətən oğulları Füzuli, Cəbrayıl və Murovdağ istiqamətində gedən döyüşlərdə fəal iştirak edib, bir çox yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsində müstəsna xidmətlər göstərib. Neçə-neçə döyüşçü şəhidlik zirvəsinə ucalıb, onlarla əsgər və zabit "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, döyüş orden-medallarına layiq görülüb.

Hərbi hissənin şəxsi heyəti bu gün də Ulu Öndərin ideyalarına sadiqdir və möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda hər bir əmrinə hər an hazırdır.

Hərbi qulluqçulardan Rasim Manafov, Vüqar İspəndiyarov, Əflatun Məsimov, Aqil Cəfərov, Müşviq Məmmədov, Rövlan Əzimov və başqaları çıxış edərək bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərini, Ümummilli Liderimizin arzularının həyata keçməsi üçün bundan sonra da səylə çalışacaqlarını, peşəkarlıqlarını daha da artıracaqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Nümunəvi xidmət*

# "Bayrağımızı ata-baba yurdlarımızda da dalğalandıracağıq"



*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə - torpaqlarımızın müdafiəsində dayanan igid oğullarımızla görüşə gəlmişik.*

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan, nümunəvi xidməti ilə komandir heyətinin rəğbətini qazanan əsgər Aslan Aslanzadə ilə tanış oluram. Xidmət dövrünü layiqincə bitirmək ərəfəsində olan həmsöhbətim evlərinə başıuca qayıdacağını bildirir: "Ehtiyata buraxılmağa baxmayaraq, daim Vətənimizin əsgəriyəm, Ali Baş Komandanımızın döyüş əmri ilə ata-baba torpaqlarımızı erməni tapdağından azad edənlərin sıralarında olacağım günü səbirsizliklə gözləyirəm. Hesab edirəm ki, bu gün komandirlərimizdən öyrəndiklərimiz, keçirilən dərslər, təlimlər döyüşlərdə yardımçımız olacaq. Bu günün hazırlıqlı əsgəri sabahkı döyüşün qalib əsgəridir."

Həmsöhbətimdən "ilk dəfə döyüş növbətçisi çıxanda hansı hissləri yaşadın?" sualıma maraqlı cavab alıram: "Həmin gün daxilimdə qəribə hiss var idi, həmin hissi sözlə ifadə etməyə çəkinlik çəkirəm. Düşündükdə ki, ellərimizdə, obalarımızda, evlərimizdə yanan işıqlar bizim sayəmizdə yanır, bundan qürurlanıram. Hər dəfə döyüş növbətçisi çıxanda doğma torpaqlarımıza kənardan baxmaq mənə çox pis təsir edir. Əlbəttə, yaxın vaxtlarda bu torpaqlara ayaq basacaq, Azərbaycanın üçrəngli bayrağını dədə-baba yurdlarımızda da dalğalandıracağıq".

Əsgər Aslan Aslanzadə söhbət zamanı xidmət dövründə qazandığı layiqli dostlardan da söz açır: "Əsgərlik dostu ömür dostudur deyirlər. Hər çətin anında sənin yanında olaraq əlindən tutar, sevincli vaxtlarında daim sənin kimi sevinər, kimlərinsə yanında sənin səhvini bildirməz, yalnız ikilikdə səhvini üzünə deyər... Xidmətim zamanı Daşqın İsmaylov və Orxan Qasımov kimi dostlar qazandığım üçün sevinirəm. Xoşbəxtəm ki, xidmətim dövründə yaxşı dost qazana bildim. Ancaq ən böyük xoşbəxtlik torpaqlarımızın azad olunan günü yaşayacağımız xoşbəxtlikdir. Bizim hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın işğaldan azad olunmasıdır. İnanırıq ki, həmin şad günə tezliklə qovuşacağıq, arzularımız gerçəkləşəcək. Qarabağ həsrətinə son qoyulacaq.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 13-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və onun səhra köməkçisi Oqnyen Joviç keçiriblər.

Ermənistan tərəfdən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika və Saymon Tiller aparıblar.

# Cocuq Mərcanlıda piyada əleyhinə mina aşkarlanıb

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) dekabrın 13-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin ətrafında və suvarma kanalının çəkilməsi nəzərdə tutulan ərazilərdə aparılan təmizləmə əməliyyatları barədə məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, Cocuq Mərcanlıda gün ərzində 16 min 800 kvadratmetr ərazi tam təmizlənib, bir piyada əleyhinə mina (OZM-72) aşkar edilərək zərərsizləşdirilməsi üçün götürülüb.

Cocuq Mərcanlıda iyirmi altı gün ərzində 11 partlamamış hərbi sursat, 2 ədəd piyada əleyhinə mina (OZM-72) aşkar edilib. 486 min 680 kvadratmetr ərazi tam təmizlənib, 236 min 766 kvadratmetr ərazi 20 santimetr dərinliyində, 180 min 700 kvadratmetr ərazi isə xüsusi mexaniki vasitələrlə təmizləmə üçün hazırlanıb.

Ərazinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatı davam etdirilir.

Agentlik tərəfindən yanvarın 1-dən dekabrın 13-dək ölkə üzrə, ümumilikdə, 7532 partlamamış hərbi sursat, tank əleyhinə 204 mina və piyada əleyhinə 35 mina aşkarlanaraq zərərsizləşdirilib, 5 milyon 658 min 368 kvadratmetr ərazi yoxlanılıb.

Sosial həyat

# "Əsgərlərə yeməklər ana sevgisi ilə hazırlanır"

*Son illər Azərbaycanın ordu quruculuğunda həyata keçirilən islahatlar əsgərlərin məişətində də öz sözünü deyib. Hazırda Vətənimizin keşiyində dayanan gənclərimiz üçün hərbi bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılıb.*



Cəbhə xəttində düşmənlə təmas şəraitində yerləşən hərbi bölmənin müasir şəraiti bizə xoş ovqat aşıladı. Çətin təbii şəraitdə xidmət edən əsgərlərin gülər üzləri, əhval-ruhiyyəsi də deməyə əsas verirdi ki, hər kəs burada yaradılan şəraitdən məmnundur və belə mühitdə xidmət etməkdən qürur duyur.

Nahar fasiləsində fürsət tapıb əsgər yeməkxanasına daxil oluruq. Geniş və yaraşıqlı zalda əsgərlərin nahar etməsi üçün istənilən imkanlar yaradılıb. Müasir istilik sistemi ilə təmin edilən işıqlı zal bir azdan nahara gələn gənc sakinlərini - Vətənimizin müdafiəçilərini qəbul edir. Hamı baş geyimini çıxarıb yeməkxanaya gəlir və podnos götürüb aşpazlara yaxınlaşır. Hər kəsə növbə ilə yeməklər çəkilir. Bu mənzərəni seyr edincə adamda, doğrudan da, nikbin əhval-ruhiyyə yaranır. Bir anlıq xəyal məni lap uzaqlara - hərbi xidmətimi keçirdiyim Sovet dönəminə, Şimal hərbi dairəsinə aparır. Əlahiddə hərbi bölmədə xidmət edirdim, o qədər çox əsgəri olmasına baxmayaraq bölmənin şəraiti yaxşı deyildi. Yemək sarıdan da korluq çəkirdik, heç deməzdin ki, dünyaya meydan oxuyan, şəninə təriflər yağdırılan böyük bir orduda xidmət edirik. Elə bir qüdrətli ordu ilə müqayisə aparsaq, Azərbaycan əsgəri üçün yaradılan xidmət şəraitini ideal hesab edirəm. Doğrudan da, gənclərimiz ən müasir orduda xidmət edirlər. Hətta cəbhə xəttində əlverişli xidmət şəraiti yaradılıb. Nahar fasiləsində imkan tapıb bu fikirləri əsgərlərin öz dillərindən eşidirik.

- Doğrudan da, xidmət şəraitimiz ürəkaçandır, - deyə zaqatalalı əsgər Tamerlan Səfərov hər dəfə olduğu kimi, bu gün də iştahla nahar etdiyini bildirir. - Açığını deyim, heç evimizdə belə ideal şərait yoxdur. Burada bizə dadlı-ləzzətli xörəklər hazırlanır, milli çeşiddə, yüksək keyfiyyətli ərzaqdan bişirilən yeməklər, mövsümə uyğun salat və şirələr lap ürəyimizcədir. Kimi dindirsəniz, dediklərimi təkrarlayacaq.



- Bəs sən necə, yeməklərdən razısanmı?

- Hər şey yaxşıdır, - deyə başqa əsgər, Masallı rayonundan xidmətə çağırılan Kamran Eyvazov söhbətimizə qoşulur. - Hər gün isti yeməklər hazırlanır, salatlar, meyvə şirələri verilir. Həvəslə, iştahla nahar etdiyimiz kimi, ürəklə də xidmət edirik. Yaxşı bilirik ki, bu şəraiti bizə dövlətimiz, Prezidentimiz yaradıb.

Bakı şəhərindən olan əsgər Qalib Məcidov isə deyir ki, valideynləri gələndə belə şəraitdən onlar da məmnun qalır, ordunun rəhbərliyinə öz razılıqlarını bildirirlər. "Bu yaxınlarda valideynlərim yanıma gəlmişdi, yeyib-içməyimizi, şəraitimizi soruşanda çox razılıq etdim. Onların simasında xoş ovqatda olduqlarını hiss etdim. Komandirlərimiz daim bizimlə maraqlanır, üst-başımıza, paltarlarımıza, yataq dəstlərimizin daim təmiz, səliqəli olmasına diqqət yetirirlər."

Mətbəxə keçib aşpaz qadınlarımızla görüşürük. Hər biri tər-təmiz ağ xalatdadı, üz-gözlərindən əsgərlərimizə olan bir ana-bacı sevgisini hiss edirəm.

- İndi əsgərlərlə söhbətləşdim, hazırladığınız xörəklərdən dönə-dönə razılıq edirlər...

- Onların hər birini doğma övladımız, qardaşımız bilirik, - deyə baş aşpaz kiçik çavuş Aybəniz Süleymanova əsgərlərə bir ana sevgisi ilə nahar hazırladıqlarını bildirir. - Bayaqdan masalarda nahar edən əsgərlərə baxıram, iştahla nahar etdiklərini görəndə özüm də sevinirəm. Hər biri övladım, qardaşımdır. Prezidentimiz Tərtər rayonuna səfəri zamanı hərbi hissəyə getmişdi və əsgər yeməkxanasına da baş çəkmişdi. Yaxşı xatırlayıram, onda aşpazlara üzünü tutub demişdi ki, siz əsgərlər üçün daha da dadlı, keyfiyyətli yeməklər hazırlayın, qoy onlar sağlam, gümrah, möhkəm olsunlar, çünki torpaqlarımızı, Vətənimizi düşməndən qoruyurlar.

Aşpaz Aynurə Əfəndiyeva da müddətdən artıq həqiqi hərbi xidmətə cəlb edilən peşəkar işçilərdən biridir. Deyir ki, bir neçə il öncə qadınların orduda məişət işlərində çalışdığını eşidəndə, o da sevinib və hərbi xidmətə gəlmək üçün komandanlığa müraciət edib. "Elə bu rayonun sakiniyəm, doğma el-obamızı xain düşməndən mətinliklə qoruyan gənclərimiz üçün yemək hazırlanmasında əməyim olduğu üçün qürur duyuram. Gördüyünüz bu əsgərlər gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar, onların həvəslə nahar etdiyini görəndə mən də sevinirəm. Yəqin ki, nahar vaxtı əsgərlərə fikir verdiniz, görün nə qədər həvəslə nahar edirlər, çünki yeməklərimiz dadlı, keyfiyyətlidir. Dövlətimiz, ordumuzun rəhbərliyi sağ olsunlar ki, əsgərlərə belə yüksək qayğı göstərir.



Afət Kərimova da aşpazdır, kollektivdə çalışqanlığı, bacarığı ilə üz ağardıb. Afət xanım da deyir ki, əsgərlərə bir ana, bacı kimi qayğı göstərməyi özünə əsl vətəndaş haqqı bilir. "Müstəqil dövləti, qüdrətli Vətəni, yurdu ilə qürur duyan hər kəs öz ordusuna, əsgərinə qayğı göstərməyi özünə borc bilməlidir. Bizim qohumlardan da beş-on il əvvəl Azərbaycan Ordusunda xidmət edənlər olub, deyirlər ki, heç bir vaxt indiki şərait ordumuzda olmayıb. Onlar əsgər olanda o qədər dadlı ev yeməklərinin həsrətini çəkiblər ki. Amma indi vəziyyət tamam dəyişib, hərbi hissələrdə təcrübəli həmkarlarımın hazırladığı yeməklərdən hər kəs razılıq edir".



Hərbi bölmənin cavabdeh zabitlərindən olan Rəşad Gülməmmədov və Aybək İbrahimov da söhbətlərində yeməkxanada çalışan təcrübəli qadın işçilər haqqında ağızdolusu razılıq edirlər. Deyirlər ki, əsgərlərlə birgə onlar da burada nahar edirlər və hər dəfə xörəklərin keyfiyyətindən razı qalırlar. Rəşad deyir ki, qadın səliqə-sahmanı hiss edilən yerdə adam özündə rahatlıq tapır. "Bir neçə il əvvələ kimi hərbi hissəmizdə belə şərait yox idi, dövlətimiz, komandanlıq tərəfindən nümunəvi hərbi xidmət üçün lazım olan bütün şərait yaradılıb. Belə mühitdə əsgərlər ürəklə, məsuliyyət hissi ilə xidmət edir, bütün tapşırıqların öhdəsindən bacarıqla gəlirlər."

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Şair və aşıqlar tankçıların qonağı olublar

*Böyük Vətən müharibəsi illərində Azərbaycanın şair, yazıçı və sənət adamlarının səsi-sorağı tez-tez cəbhələrdən, döyüş meydanlarından gələrdi. Onlar Vətən əsgərlərini faşizmə qarşı birgə mübarizəyə səfərbər edər, qəhrəmancasına vuruşmağa çağırar, onların vətənpərvərlik hissini, döyüş ruhunu daha da yüksəldərdilər.*





Müharibənin ilk günündən "Müsəlləh əsgər" olan Xalq şairimiz Səməd Vurğun qanlı döyüşlər getdiyi bir vaxtda yazırdı ki, "Çiçək vaxtı deyil indi, barıt vardır havalarda...", "Qoy hər sözün ciyəriylə nəfəs alsın bir qəhrəman!".

Bu gün də ölməz şairimizin davamçıları, Qazax rayonundan olan şair, yazıçı, aşıqlar və kütləvi informasiya vasitələrinin nümayəndələri Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin nümayəndəsi Abdulla Qurbaninin müşayiəti ilə cəbhəboyu zonada yerləşən hərbi hissədə tankçıların qonağı olublar.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri Barat Vüsal, gənc şair Elnur Süleymanlı yeni şeirlərini oxuyub, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl qəzetin ordu ilə xalqın birliyinə həsr olunmuş xüsusi buraxılışını əsgərlərə təqdim edib, aşıq Hüseyn Kəmərli və şəhid atası, aşıq Hüseyn Əzizoğlu sazlarını "Misri", "Döşəmə Koroğlu", "Ruhani" havalarına kökləyiblər. A.Qurbani də yeni şeirləri ilə tankçıları təlimlərdə, döyüş hazırlığında daha böyük uğurlar qazanmağa ruhlandırıb.

Ölkədə hərbi vətənpərvərlik işinin təşkilində xidmətlərinə görə şair Barat Vüsala Azərbaycan Respublikası Veteranlar Şurasının "General Əlağa Şıxlinski" yubiley medalı, digər qonaqlara isə foto-albomlar təqdim edilib.

Tankçılardan zabit Mircəlal Bəndiyev və aprel döyüşlərinin iştirakçısı Pərviz Süleymanov çıxış edərək qonaqları əmin ediblər ki, onlar bundan sonra da Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaq və uğurları ilə xalqımızı sevindirəcəklər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Məktəblilər hərbi hissədə

*Gəncə şəhərində məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsinə və gələcəyin fəal qurucuları kimi formalaşmalarına böyük diqqət yetirilir. Məktəblərdə bu məqsədlə görüşlər, ədəbi-bədii gecələr, anım mərasimləri, xatirə gecələri keçirilir. Şagirdlərə xalqımızın qəhrəmanlıq tarixindən geniş məlumatlar verilir. Qəhrəman oğulların həyatı, döyüş yolu onlara aşılanır.*

Görkəmli dövlət xadimi Nəriman Nərimanovun adını daşıyan tam orta məktəbin pedaqoji kollektivi də gənc nəslin gələcəyin əsl vətəndaşları kimi formalaşmaları üçün öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirir. Məktəbin yetirmələri müxtəlif qoşun növlərində vətəndaşlıq borclarına şərəflə əməl edirlər.

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin səyyar şöbəsinin təşkilatçılığı ilə məktəbin şagirdləri "N" hərbi hissəsində olublar. Öncə məktəblilər və hərbi qulluqçular xalqımızın ümummilli lideri Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yad ediblər.



Polkovnik-leytenant Rüstəm Məmmədov və zabitlər Arif İsmayılov, Rəcəb Bəyalıyev, kitabxananın əməkdaşları Səidə Müseyibova, Elnarə Hüseynova məktəblilər qarşısında çıxış ediblər. Onlar ölkəmizdə həyata keçirilən islahatlardan, ordu quruculuğuna dövlət qayğısından bəhs ediblər. Vurğulayıblar ki, gənc nəslin təlim-tərbiyəsinə xalqımızın Ümummilli Lideri tərəfindən həmişə yüksək diqqət, qayğı göstərilib. Xalqımızın güvənc yerinə çevrilən Silahlı Qüvvələrin formalaşması, müasir tələblər səviyyəsinə yüksəlməsi də Ulu Öndərin adı ilə bağlıdır. Bu yol hazırda Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra məktəblilər əsgərlər üçün yaradılan yüksək şəraitlə yaxından tanış olublar və hərbi hissənin şəxsi heyəti ilə birgə nahar ediblər. Gənc nəslin nümayəndələri hərbi hissədən xoş təəssüratla ayrılıblar.

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

# Tbilisidə GUAM PA-nın 10-cu sessiyası keçiriləcək

*Gürcüstanın paytaxtı Tbilisi şəhərində dekabrın 17-19-da GUAM Parlament Assambleyasının 10-cu sessiyası keçiriləcək.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlament nümayəndə heyətinin də iştirak edəcəyi sessiyada GUAM ölkələri arasında əlaqələrin inkişafı, parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi, bu sahədə qanunverici orqanların rolu və s. məsələlər müzakirə olunacaq.

Sessiyada Azərbaycanı Milli Məclisin GUAM PA-dakı nümayəndə heyətinin rəhbəri Azər Kərimli, deputat Əli Məsimli və digər rəsmi şəxslər təmsil edəcəklər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 127 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli və Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Muncuqlu və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Acarlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***15 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 128 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli və Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Muncuqlu və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Divar mətbuatı kursantların maraq dairəsindədir

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuyan kursantların gələcəkdə ölkəmiz üçün layiqli vətəndaş, ordumuz üçün savadlı və peşəkar zabit kimi hazırlanmaları üçün hərtərəfli şərait yaradılıb.*



Hərbi liseydə tez-tez Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunan idman yarışları keçirilir. Kursantlar bu birinciliklərdə fəal iştirak edərək daim hazırlıqlarını artırırlar. Yarışdan-yarışa onların fiziki göstəriciləri daha da yüksəlir. Kursantlar asudə vaxtlarını səmərəli keçirmək üçün müxtəlif vətənpərvərlik tədbirlərində həvəslə iştirak edirlər.

Sabahımızın zabitləri olacaq kursantlar divar qəzetlərinin hazırlanmasına da böyük maraq göstərirlər. Hər kursun kollektivi öz divar mətbuatının daha məzmunlu və rəngarəng hazırlanmasına çalışır. Bu günlərdə tədris otaqlarına baş çəkib kursantların hazırladıqları divar qəzetləri ilə tanış olduq. Qeyd edək ki, gördüklərimiz təsəvvür etdiyimizdən qat-qat yüksək idi.

Divar qəzetlərinin adları da diqqətimi çəkdi. "İldırım", "İntizam", "Uğurlarımız", "Kursant həyatı" və başqa qəzetlər. Divar qəzetlərinin adları fərqli olsa da, məqsəd və məramı gələcəyin zabitləri olacaq kursantlara hərbi vətənpərvərlik hisslərini aşılamaqdır. Bu məqsədlə divar qəzetlərində maraqlı material və şəkillərə geniş yer ayrılır. Ölkəmizin uğurları, ordumuzun daim artan qüdrəti, Milli qəhrəmanlarımızın şərəfli döyüş yolları, Azərbaycan Ordusunun aprel döyüşləri və başqa mövzularda yazılan materiallar hər bir kəsin diqqətini çəkir.

- Kursantlarımız divar qəzetlərinin hazırlanmasında həvəslə iştirak edirlər, - deyə Azərbaycan dili və ədəbiyyatı müəllimi Peykər Həbibova sözə başladı. - Onlar bir-birindən maraqlı məqalələr yazır, müxtəlif mövzulara uyğun rəsmlər çəkirlər. Məqalə və çəkilən rəsmlər bir-birini tamamladığından oxucuların zövqünü oxşayır, könlünü açır. Kursantlarımız divar qəzetinin həm formasına, həm də məzmununa böyük diqqət ayırırlar. Çalışırlar ki, qəzetlərin həm forması, həm də məzmunu rəngarəng olsun. İnanıram ki, belə istedadlı gənclər gələcəkdə ordumuz üçün bacarıqlı zabitlər olacaqlar. Divar qəzetlərinin hazırlanmasında zəhməti olan kursantlardan Əli Bağırovun, Rəfael Qasımovun, Tapdıq Mansurovun, Elçin Ələsgərzadənin və başqalarının adlarını çəkmək istərdim.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan mətbuatı Vanadzor-Dilican yolunda avtoqəza nəticəsində iki hərbçinin xəsarət aldığı barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, müalicədə olan hərbçinin birinin vəziyyəti kafi, digərinin isə ağır qiymətləndirilir. Yaralananların ad və soyadları gizlədilsə də, onlardan birinin mayor rütbəsində alayın mühəndis xidməti rəisi, digərinin isə hərbi hissədə xidmət edən kapitan olduğu məlumdur.

Məlumatı Ermənistan müdafiə nazirliyinin mətbuat xidmətinin rəisi Arçurun Hovanesyan da təsdiq edib.

* * *

Bu günlərdə Ermənistan ordusunun hərbi hissələrindən birində tükürpədici hadisə baş verib. Hərbi hissədə tibb bacısına təcavüz edən beş nəfər erməni hərbçisinin cinayət məsuliyyətinə cəlb edilməsi xəbəri çoxlarını şoka salıb.

Sosial şəbəkədə yayılan məlumatda deyilir ki, Ruben Dallakyan, Nver Yermyan, Aşot Tonyan, Vartan Nazaryan və Onik Hambartsumyan adlı hərbi qulluqçular tibb bacısı Alisa Hayrapetyanla cinsi əlaqədə olublar.

Cinsi təcavüzdən sonra A.Hayrapetyan hüquq mühafizə orqanlarına müraciət edib. Hərbi qulluqçuların cinayət məsuliyyətinə cəlb edilməsinə baxmayaraq hadisə ictimaiyyətdən gizli saxlanılır, açıqlama verilmir. Faktla bağlı araşdırma davam edir.

* * *

Ermənistan qoşunları tərəfindən işğal edilən Azərbaycanın Hadrut yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində mobil telefonu təhvil vermək əmrinə tabe olmayan Aşur adlı hərbi qulluqçu zabit tərəfindən vəhşicəsinə döyülüb.

Sosial şəbəkələrdən əldə edilən başqa bir xəbərdə deyilir ki, erməni hərbçi Nver Xanoyan da xidmət yoldaşları tərəfindən döyüldüyünə görə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Hər iki hərbi qulluqçu tibb məntəqəsində müalicə olunsa da, hadisələr komandanlıq tərəfindən ört-basdır edilir.

* * *

Sosial şəbəkələrdə paylaşılan bir xəbərdə isə deyilir ki, Madagiz yaşayış məntəqəsində yerləşən işğalçı ordunun bölmələrindən birində hərbçilər arasında mübahisə baş verib. Mübahisə zamanı təhqirlərə dözməyən Armen Hakopyan adlı hərbi qulluqçu yerdən götürdüyü daşla Kalaşyan soyadlı hərbi qulluqçuya bir neçə zərbə endirərək başını yarıb. Kalaşyan hərbi hospitala, əsgər yoldaşının başını yaran A.Hakopyan isə həbs edilərək haupvaxtaya göndərilib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi ənənələr, yeniliklər*

# Amerikasayağı güllələr





"Thefirearmbloq.com." portalı yivli silahlar üçün istehsal ediləcək güllələrin çəkisinin müəyyən qədər az olacağı və Amerikanın "FiqhtLite İndustries" şirkətinin tam plastik gilizlərdən hazırlanmış yeni güllələrin təqdimatını keçirdiyi haqda məlumat verib.

Məlumata görə, plastik gilizlər aktiv şəkildə hamarlüləli patronlarda istifadə edilir. Bu yaxınlarda bir çox şirkətlər yivli silahlar üçün döyüş sursatlarını təqdim etməyə başlayıb. Bundan əvvəl istehsal olunan güllələr müxtəlif hündürlükdə, metal dibli olublar. İndiki 5,56 mm-lik güllələrin fərqli cəhəti odur ki, onların gilizi plastikdən hazırlanıb və heç bir metal elementlərdən istifadə edilməyib. Korporasiyanın baş direktorunun sözlərinə görə, FiqhtLite 5,56 mm-lik güllələr öz sələfi olan latun gilizlərindən fərqli olaraq çəkisi 30 faiz yüngül və ucuz olacaq. Yeni döyüş sursatı alternativ teleskopik patron olacaq və silahın çəkisinin aşağı düşməsini təmin edəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Filippinin cənubunda hərbi vəziyyətin müddəti uzadılıb



Filippin konqresi ölkənin cənubunda yerləşən Mindanao əyalətində hərbi vəziyyətin müddətinin daha bir il uzadılması barədə qərarı dəstəkləyib.

Bu barədə səsvermə ABS-CBN telekanalı ilə birbaşa yayımlanıb.

Filippin Prezidenti Rodriqo Dutertenin hərbi vəziyyətin müddətinin uzadılması üçün konqresə müraciət etməsi barədə məlumat yayılmışdı. Bu barədə tövsiyəni ona hərbçilər və polis orqanları yaraqlılar tərəfindən gözlənilən təhlükə ilə bağlı veriblər.

R.Dutertenin təklifinin lehinə 240, əleyhinə isə 27 deputat səs verib. Mindanao əyalətində hərbi vəziyyət 2018-ci ilin dekabrınadək davam edəcək.

### İşğalçı Ermənistan ordusunun əsgəri xidmət yoldaşını öldürüb



Dekabrın 11-də saat 19:30 radələrində işğal edilmiş Dağlıq Qarabağ ərazisində Ermənistan ordusunun əsgəri avtomat silahdan atəş açaraq xidmət yoldaşını öldürüb.

Ermənistan KİV-lərinə istinadən xəbər verilir ki, qətlə yetirilən əsgər 1996-cı il təvəllüdlü Narek Marzpetuni Adibekyandır.

Hadisə ilə bağlı araşdırma aparılır.

### NATO-nun baş katibinin səlahiyyət müddəti iki il uzadılıb



NATO-nun baş katibi Yens Stoltenberqin səlahiyyət müddəti iki il uzadılıb.

Təşkilatdan verilən açıqlamada baş katibin səlahiyyət müddətinin 2020-ci il sentyabrın 30-dək uzadıldığı bildirilir.

### İraqda 38 terrorçunu edam ediblər



İraqın hakimiyyət orqanları terrorçuluğa görə mühakimə olunan 38 məhbus barəsində ölüm hökmünü icra ediblər.

Bu barədə İraq Ədliyyə Nazirliyi məlumat yayıb. "Terrorçuluqda ittiham olunan 38 məhbusun ölüm hökmü icra olunub", - nazirliyin bəyanatında belə deyilir.

Nazirlik bildirib ki, edam cəzası hökmlərin qəti olaraq təsdiqlənməsindən və ölkə rəhbərliyinin razılığından sonra həyata keçirilib.

Xatırladaq ki, İraqın baş naziri Heydər əl-Abadi dekabrın 9-da ölkədə İŞİD terror qruplaşmasına qarşı müharibənin qələbə ilə başa çatdığını elan etmişdi.

### Yaponiyanın "Ispace" şirkəti Ayda su ehtiyatları axtaracaq



Yaponiyanın "Ispace" şirkəti Ayda su axtarışı məqsədilə Yerin bu peykinə enəcək iki aparatın hazırlanmasına başlayacaq.

"Ispace" şirkəti həmin layihənin maliyyələşdirilməsi üçün 12 investisiya şirkəti tərəfindən 89 milyon dollar vəsait ayrılacağı barədə məlumat yayıb.

Ayda su ehtiyatlarının axtarışı üzrə missiyanın 2019-2020-ci illərdə həyata keçirilməsi planlaşdırılır. Astronavtların burada sudan istifadə edəcəkləri və eyni zamanda, kosmik aparatın idarəsi üçün hidrogen və oksigendən faydalanacaqları gözlənilir.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp dekabrın 11-də NASA-nın əməkdaşlarına Marsa pilotlu uçuşların həyata keçirilməsinə hazırlıq məqsədilə Ayda stansiyanın inşası barədə göstəriş verib.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# Bir ovuc torpaq

Hər tədbirin özünəməxsus qayəsi olur...

Kütləvi vətənpərvərlik tədbirlərinin mahiyyəti vətənləşdirmək niyyətidi...

Vətənləşmək Vətəni özünə, adına layiq olan müqəddəslik mərtəbəsində yaşatmaqdı. Belə yaşayanlara əsl vətəndaş deyirik...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, şair-publisist Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla Qazaxda keçirilən "Ordumuz - qürurumuz, xalqımız - dayağımız" kütləvi vətənpərvərlik tədbirində bir rəmz mənə də ecazkar duyğular yaşatdı. Böyük Qələbənin rəngini gördüm, yaxın vaxtlarda müqayisəyəgəlməz könül xoşluğuyla yaşayacağımız anları indidən yaşadıq...

Qazax ermənilərlə sərhəddi. Otuz ilə yaxındı düşmənin həmlələri, hücumları burada da mərdliklə dəf edilir. Ermənilər bu tərəflərdə də təxribatlar törədə bilmir. Əsgərlərimizdə Göyəzən əzəməti var, Avey qüruru, Damcılı duruluğu var. Dan üzü çiçəklərin ləçəyinə düşən şeh də, hərdən əsən, hərdən əsə-əsə kükrəyən yellər də, dənəbir-dənəbir yağan ağ yağışlar da burada xidmət edən əsgərlərə təbiətin xeyir-duasıdı. "Ordumuz - qürurumuz, xalqımız - dayağımız" tədbirini bu ehtirama söykənən söz - səs-rejissura abidəsi bilmək günah deyil.

Tədbirdə Qazaxın min illərin o üzündən boy verən tarixi xatırlandı, bu tədbir hər açılan səhəri "Misri" deyən, "Qəhrəmani", "Cəngi", "Döşəmə Koroğlu"... deyən bir bölgənin şeiriyyət dünyasına işıq saldı, qəhrəmanları, şəhidləri anıldı. Qazaxın şeirsiz günü olmayıb. Şeir bu tədbirin də göyqurşağına döndü. Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri şair Barat Vüsalın oxuduğu şeir toplaşanları duyğulandırdı da, Vətənə torpağa köklənmiş düşüncələrini piləşdirdi də.

Barat Vüsalın şeiri mahiyyəti etibarilə torpağın (Azərbaycan torpağının!) müqəddəsliyinin, qadirliyinin, ilahiliyinin etirafıdı: bir ovuc torpaqdı yaralarımızın məlhəmi.



Vüsal Ağayev Emin Sabitoğlunun "Vətən bayatıları"nı oxuyurdu. Bu kövrək oxuma rəmzi olaraq yaralı əsgərin oxumasıydı. Mahnı bitər-bitməz kimsə şairə bir dəsmal arası torpaq verdi. Torpağı öpüb yaralı əsgərin yaralarına çilədilər. Və kimsənin gözləmədiyi möcüzə! - yaralı əsgər əl arabasından düşdü, üzü səngərlərə tərəf yol aldı. Döyüş növbətçiliyi aparmağa, Ali Baş Komandan döyüş əmri verərsə, döyüşməyə, Böyük Qələbənin əsgəri olmağa!.. Budur, bir ovuc torpağın qüdrəti! Budur, torpağa mehr-ülfət! Torpağa mehr-ülfət Vətənə sevgidi, Vətən sevgisidi. Bu, həm də sözün-şeirin qüdrətidi. Şeir deyirdi ki, sevin torpağı - Vətəni, qoruyun torpağı - Vətəni, sevə-sevə qoruduğunuz, qoruya-qoruya sevdiyiniz torpaqdı yaralılarımızın məlhəmi. Abdulla Qurbani şeirin mahiyyətini müəyyənləşdirən fəlsəfəni tədbirin ruhu kimi təqdim etdi. Duyğulandırıcı rəmzlə! Bu da qüdrətdi!

Tədbirin mahiyyəti - fəlsəfəsi deyirdi ki, Vətənin çöl-çəməni, yol-yamacı, dağı ilə vətənləşin, sər çeşməsi, gur bulağı ilə vətənləşin, ağacların budağını yarpaq-yarpaq əsdirən mehi ilə, çiçəklərin ləçəyinin şehi ilə vətənləşin, duyum-duyum, duyğu-duyğu vətənləşin, şəhidlərin ruhu ilə vətənləşin! Güvəndiyimiz Azərbaycan əsgəri bu məzmunda mükalimələşmənin də vətənləşmə olduğuna varlığıyla inanır...

Və bu ovqat içində Barat Vüsalın neçə gündü könlümün şəriksiz sultanına dönən şeirilə şeirləşdim:

*Qara qəhərini qara yazmadı,*
*Nişan da vermədi qara dərmanı.*
*Qara lövhə bildi qara günləri,*
*Nə yazdı ağ yazdı qara - dərmanı.*

*Qanadı qırılmış sar gördü, güldü,*
*Payızın telində qar gördü, güldü,*
*Dağlara can atan tar gördü, güldü,*
*İsti nəfəs bildi tara dərmanı.*

*Gördü ki, dərdimiz çataq-çataqdı,*
*Dərdə əmzik verən şər də oyaqdı...*
*Dedi ki, bir ovuc qara torpaqdı,*
*Əsgər yarasına yara dərmanı!..*

O şeirin də, bu ovqatın da, bu ovqatdan rişələnən bu şeirin də mahiyyəti Ali Baş Komandanın əmriylə Azərbaycan əsgərinin qazanacağı Böyük Qələbədi. Qədim tarixlərdə, eləcə də oğuzlarda qəza ifadəsinin bir çaları da torpaq uğrunda döyüş olub. Döyüşə gedənlər "Qəzan mübarək!" - duasıyla uğurlanıb. Vətən kəlməsini ürəkdə cücərdib başda göyərdənlər Ali Baş Komandan əmr etsə, Azərbaycan əsgərinə "Qəzan mübarək!" də deyəcəyik, "Zəfərin mübarək!" də!

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Əsgərlər tarixi filmlərə maraqla baxdılar



*Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, "N" hərbi hissəsində gənc əsgərlərin vətənpərvərlik ruhunun yüksəldilməsi, milli-mənəvi dəyərlərin öyrənilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilir.*

Gənc əsgərlər qısa müddətdə ordu həyatına alışmaqla, Vətənin etibarlı müdafiəçiləri kimi formalaşmağa səy göstərirlər. Bu sırada mədəni-kütləvi tədbirlərin keçirilməsi ənənə halını alıb. Polkovnik-leytenant Rüstəm Məmmədov bildirdi ki, gənc əsgərlərin mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onlara qədim keçmişimizdən, mədəniyyətimizdən, xalqımızın keçdiyi qəhrəmanlıq yolundan və müstəqillik tariximizdən ətraflı məlumatlar verilir. Əsas məqsəd şəxsi heyətimizin mərd, mətin, Vətən müdafiəçisi olmaqla, gələcəyin fəal qurucuları kimi formalaşdırılmasıdır.

Hərbi hissədə keçirilən kino nümayişi günləri də şəxsi heyət tərəfindən rəğbətlə qarşılanır. Bir neçə gündür ki, xalqımızın azadlıq mübarizəsindən, qəhrəmanlıq tariximizdən bəhs edən filmlər nümayiş etdirilib. Əsgərlər "Babək", "Koroğlu", "Yeddi oğul istərəm", "Bəxtiyar", "Böyük dayaq" və başqa flimlərə böyük maraqla baxıblar.

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana sisteminin səyyar şöbəsinin böyük kitabxanaçısı Elnarə Hüseynova söhbətimizdə bildirdi ki, növbəti günlərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun həyat və döyüş yolundan bəhs edən və kinorejissor Rasim İsmayılovun çəkdiyi "Sizi dünyalar qədər sevirdim", yazıçı Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanının motivləri əsasında Rövşən Almuradlının rejissorluğu ilə çəkilən "Cavad Xan", Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə ittaf olunmuş "Müqəddəs zirvə" və rejissor Tofiq Tağızadənin Böyük Vətən müharibəsindən bəhs edən "Uzaq sahillərdə" flimləri nümayiş etdiriləcək.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

Redaksiyamızın poçtundan

# "Onlar da fəxr edir, biz də"

Hər insanın həyatında müəyyən təsadüflər olur. Bu təsadüflər bəzən onun həyat yolunu müəyyənləşdirir. Həmin təsadüfü ömür yolunun başlanğıcı bilənlər də çoxdur və mən özümü onların sırasında hesab edirəm.

Azərbaycan Tibb Universitetinin məzunuyam. Dağlıq Qarabağda və onun ətrafında baş verənlər bütün azərbaycanlı gənclər kimi mənim də ürəyimi qana döndərirdi. Oğlanlı-qızlı hamımız döyüş bölgələrinə getmək istəyirdik...

2002-ci ildən Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında işləyirəm, hazırda fizioterapiya kabinetinin müdiriyəm. Hərbi qulluqçulara xidməti Vətənə xidmət, müraciət edən hər zabiti, hər əsgəri qardaşım bilirəm.

Oğlum Fərid əsgərdir. Fərid dili söz tutandan hərbi xidmət eşidib. Bu, təbii ki, onun vətənpərvər bir gənc kimi formalaşmasına təsir göstərib. Onu hərbi xidmətə yola salanda atasının da, mənim də qürurumuz yerə-göyə sığışmırdı. Oğlumuz bizi inandırdı ki, yaxşı xidmət edəcək...

Hörmətli redaksiya!

Qəzetinizin 29 noyabr tarixli sayında Şərafət Muquzovanın "Əsgər oğluma məktub" məqaləsi bir vətəndaş kimi, əsgər anası kimi məni də duyğulandırdı.



Bu məktubu bütün əsgər analarının adından yazılmış məktub kimi oxudum. Belə məktub - müraciətə görə Şərafət xanıma, məktubu dərc etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. O məktub bir nəfərə ünvanlansa da, bütün əsgərlərimiz üçündü. Oğlum Fəridin də "Əsgər oğluma məktub"u ana öyüd-nəsihəti biləcəyinə zərrəcə şübhə etmirəm. İnanıram ki, "Vətəni anan kimi qoru, oğlum!" - ifadəsi mənim oğlumun da hərbi xidmətinin qayəsidir.

Oğullarımız Vətəni sevir və qoruyur. Onlar əsgər adıyla, biz əsgər anası adıyla fəxr edirik. Biz istəyirik ki, oğullarımız qalib əsgər kimi tərxis olunsunlar. Azərbaycan əsgəri bu inamla xidmət edir. Onlar yaxın vaxtlarda bizə - Azərbaycana, Azərbaycanı sevənlərə qələbə ovqatı yaşadacaq!..

**Şəfəq BAĞIROVA,**
**Bakı şəhəri**


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 769<br>Nüsxə 4600 |